**UOT 78**

**Gülnar Verdiyeva**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**baş müəllim**
**E-mail: verdievag@mail.ru**

# NƏ QƏDƏR ŞAİR VAR, SÖZ VAR, ŞEİR VAR DÜNYADA ONLARDAN MƏNƏM YADİGAR

**Xülasə:** Bu məqalədə dahi Azərbaycan şairi Nizaminin musiqi haqqında fikirləri təsvir edilmişdir. Onun mülahizələri sanki o dövrün mədəni həyatına işıq salır və uzun müddət musiqişünasların diqqət mərkəzində qalacaq, yeni araşdırmalara səbəb olacaqdır.

**Açar sözlər:** mədəniyyətşünaslıq, musiqişünaslıq, tədqiqat, Nizami, musiqi

"Azərbaycan İntibahı" sayılan XI-XII əsrlər bəşəriyyət tarixinə adı qızıl hərflərlə yazılmış bir çox yaradıcı insanlar bəxş etmişdir. Dünyanı silkələyən, lərzəyə gətirən, poeziyamıza əlvan çiçəklərdən çələng hörən və Azərbaycan şeiriyyatını bütün dünyada tanıdan Nizami Gəncəvi dühası da məhz bu dövrün nadir incilərindəndir.

Söz dünyasının sönməz günəşi, poeziya dəryasının nəhəngi, milli olduğu qədər də bəşəri şairimiz Nizami Gəncəvi Azərbaycan poeziyasını zirvələrə yüksəltmiş,yaradıcılığının əsl qiymətini dərk edən,onun bəşər tarixində tayı-bərabəri olmadığını yaxşı başa düşərək əlçatmazlığını anlayan xələfləri böyük şairin sənət dünyasında açdığı parlaq cığırlarla addımlamış, Nizami məktəbindən bəhrələnmiş, onun bənzərsizliyini dərk edərək ona bənzəməyə çalışmışlar.

Nizaminin "Xəmsə" adı altında birləşmiş və bütün aləmdə məşhuri-cahan olmuş"Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İskəndərnamə" poemalarının hər kəlməsini qiymətli xəzinə kimi qəbul edən, onun qələmindən çıxan hər bir misranı ləl-cəvahirə bənzədən bir çox dünya şairləri Nizamidən qidalanmış, bədii dəyərinə görə ölçü meyarlarını üstələyən, çəkisinə görə heç kimlə müqayisə olunmayan Nizami Gəncəvi yaradıcılığından ilham almışlar və beləliklə, Nizami obrazları, Nizami fəlsəfəsi və Nizami düşüncə tərzi Şərq ədəbiyyatının zənginləşməsinə səbəb olmuşdur.

Azərbaycan və Yaxın Şərq ədəbiyyatının bir çox tanınmış simaları dahi şairə ehtiram əlaməti olaraq onun poemalarına nəzirə yazmışlar, eyni başlıqlarla əsərlər meydana gətirmişlər və artıq Yaxın Şərq ədəbiyyatında bir ənənəyə çevrilmiş bu proses, şübhəsiz ki, şairin dühasına hörmətin parlaq təzahürü kimi qiymətləndirilir.

*Nizami hər sözü demiş birinci*
*Qoymamış cilasız qalsın bir inci...*

sözlərini deyən hind şairi Əmir Xosrov Dəhləvi farsca ilk dəfə olaraq "Xəmsə"nin tam variantını yaratmışdır.

Böyük şairimiz Səməd Vurğun Nizami dühasını ilahiləşdirərək, onun Aydan, Günəşdən yarandığını söyləyir:

*Sənsən əbədiyyat dediyim sevgili dildar,*
*Dağlarda, çiçəklərdə, ürəklərdə adın var.*
*Aydanmı, günəşdənmi yarandın, de nədən sən?*
*Xalqın gözü də, qəlbi də, vicdanı da sənsən!*

Həqiqətən də, poeziya aləmində bənzərsiz hadisəyə dönmüş, xalqımızın qürur mənbəyinə çevrilmiş Nizami Gəncəvi 800 ildən artıqdır ki, günəş kimi ətrafa işıq saçaraq bəşəriyyəti öz parlaq nuruna qərq edir, öz hərarəti ilə isidir.

Nizami şeiriyyatında musiqi ilə ilahi bağlılığı hiss etməmək mümkün deyil. Onun hər misrasında musiqinin sehrli aləmi duyulur, hər sətrində musiqi dəryasının intəhasızlığı hiss olunur. Sanki bu misralar elə yaranandan musiqiyə ünvanlanmışdır. Nizami poeziyasında musiqiylə elə böyük bağlılıq var ki, adama elə gəlir ki, o, söz sərrafı, poeziya ustası olmaqla yanaşı, həm də incə qəlbli bir musiqiçi idi, çünki musiqini onun kimi duymaq, incəliklərini onun qədər hiss etmək, onun kimi musiqinin vurğunu olmaq, muğamlarımızı bu cür həssaslıqla vəsf etmək hər şöz sərrafına nəsib olmur, hər şairin misraları musiqiyə onunku qədər yatımlı olmur.

Nizami öz şeirlərinin musiqi təmasını sanki öncədən hiss edir, şairin onsuz da bulaq kimi axan poetikasının musiqiylə vəhdəti əsərin təsir gücünü birə on artırır.

Məhz bu səbəbdən Nizami poeziyasının notlarla təması ürəkləri yandırır, qəlbləri riqqətə gətirir. Adama elə gəlir ki, "Sənsiz" və "Sevgili canan" qəzəlləri elə musiqiylə birgə doğulub, elə dünyaya musiqiylə göz açıb. Bu iki zirvənin - Nizami və Üzeyirbəy dühalarının təxəyyül çulğalaşması, ölməz Nizami qəzəllərinin ülvi Üzeyir melodiyaları ilə vəhdəti başqa bir aləm yaradır, insan qəlbinin ən incə tellərinə toxunur, ən ülvi hisslərini oyadır, sonsuz məhəbbətin, əsl sevginin nə olduğunu eyhamla anladır.

Nizami Gəncəvinin musiqinin insan əhval- ruhiyyəsinə müsbət təsir göstərdiyini, ruha qida verərək mənəviyyatı zənginləşdirdiyini, musiqinin insan münasibətlərində başlıca amillərdən biri olduğunu anladan bir sıra hikmətli sözləri, ibrətamiz fikirləri vardır:

*Müğənni, öt yenə o lətif səsin*
*Bülbülün səsini batil eyləsin.*
*Nəvalar nəvası olsun bu nəva,*
*Dərdlərin dəvası olsun bu nəva.*

Musiqini ruhun qidası, dərdlərin çarəsi, xoşbəxtliyin açarı hesab edən şair yazır:

*Müğənni,bu gecə çəngini saz et*
*Məni bu dar yolda qəmdən xilas et.*
*Bəlkə genişlənsin, açılsın yolum*
*Köçüm bu daşlıqdan, asudə olum.*

Nizami öz əsərlərində həmçinin,musiqi alətlərinin hazırlanması ilə bağlı dəyərli fikirlər də söyləyir. "İsgəndərnamə" poemasında ud və ərğənun alətlərinin hazırlanma texnoloqiyasından, düzgün kökləmnəsindən, üzərinə ceyran dərisi çəkilmiş bu alətlərin mizrabı vurarkən zil və bəm səslər hasil etmələrindən danışır, musiqinin böyük təsir gücünə malik olduğunu söyləyərək deyir ki, musiqi yalnız insanların qəlbini oxşamaq, onları düşündürmək üçün bir vasitə deyil, şair musiqinin eyni zamanda, xəstənin dərdinə dərman olduğunu, səslərin həmahəngliyindən xəstələrin şəfa tapdığını qeyd edir:

*Ustad həmin sazı çaldığı zaman*
*Edərdi xəstənin dərdinə dərman*
*Çalğıda elə bir cəhət də vardı*
*Ki, həkim onunla dərdi tapardı.*

Əsrlər boyu poeziya və nəsrimizin mahir ustadlarının silinməz yaddaşımız olan muğamlarımızı öz əsərlərində tərənnüm etmələri ilə bağlı kifayət qədər faktlar vardır. Qədim əlyazmalarda azərbaycanın musiqi alətlərindən də bəhs edən məlumatlara rast gəlirik.

Lakin musiqi alətləri, onların tembr boyaları, səslənmə imkanları haqda Nizami Gəncəvi qədər müfəssəl məlumat verən ikinci şair olmamışdır. Bu onun demək olar ki, bütün əsərlərində, ələlxüsus, Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş "Xosrov və Şirin" poemasında özünü aydın şəkildə göstərir.

Poemanın misralarında Rast, İraq, Hicaz, Nəva, Rəhavi və s.kimi muğam və şöbələrin adı çəkilir, dövrünün musiqi həyatı, musiqi məclisləri, rəqs ifaçıları, musiqi alətləri və həmin alətlərdə ifa edən şəxslər haqqında geniş məlumatlar əks olunur.

*Bitdi Nikisanın çənglə nəğməsi,*
*Bərbədin setarı qaldırdı səsi.*
*Bir məst aşiq kimi vurdu vurdu əl,*
*Üşşaq pərdəsində oxudu qəzəl.*

*Bərbəd beylə gözəl hava çaldısa,*
*Ondan yaxşısını çaldı Nikisa.*
*Novruz gülü kimi açıldı, əvvəl*
*Novruz pərdəsində oxudu qəzəl.*

Beləliklə, Nizami musiqini insanın ən gözəl xisləti hesab edir, onsuz həyatın mənasız olduğunu, heç bir mahiyyət kəsb etmədiyini bildirir.

XX əsrin dahi filosofu, yazıçı və dramaturq J.P.Sartrın fikrincə, "Ziyalı dövrünün məsuliyyətini daşıyır, dövrünün həm şahıdır, həm də məhkumudur" .

Həqiqətən də, dövrünün məsuliyyətini daşıyan Nizami həmin dövrün mədəni həyatında baş verənləri qələmə almağı özünə borc bilmiş, musiqi ilə bağlı fikirlərini, estetik görüşlərini və ümumilikdə, musiqiyə olan münasibətini qəhrəmanlarının vasitəsilə oxucuya çatdırmış, ürəyindən keçənləri, demək istədiklərini, öz şəxsi emosiyalarını əsas obrazlarının dilindən təqdim etmişdir.

Musiqiylə bağlı misralar obrazların səciyyəsində və ümumilikdə əsərin dramaturgiyasının açılmasında müstəsna rola malikdir. Şair qəhrəmanlarının tam surətini yaratmaq üçün, hadisələrin daha düzgün, daha inandırıcı təqdimatına nail olmaq üçün çox zaman musiqiyə meydan vermiş, musiqidən söhbət açmış, musiqiylə bağlı misralara müraciət etmişdir.

Böyük ərəb alimi Əbül Fərəc İsfahaninin dediyinə görə "Daş-qaş əvəzinə özünə bilik yığsan, daha çox tanınarsan: ən qiymətli daşı salıb itirə bilərsən, ən sadə biliyi isə səndən heç kəs ala bilməz".

İnsanı ən uca varlıq, yaranmışların ən şərəflisi hesab edən Nizami onları bilik əldə etməyə, savadlı və hərtərəfli olmağa çağırır.

*İnsana arxadır onun kamalı,*
*Ağıldır hər kəsin dövləti, malı*

misralarını söyləyən şair insanları elmli olmağa, maariflənməyə, dövrünün siyasi və mədəni hadisələrindən xəbərdar olmağa səsləyir.

Və ən əsası da odur ki, Nizaminin düşüncəsinə görə dövrünün ziyalısı savadlı olmaqla ,dilləri və sözlərin çalarını bilməklə, təbiətşünaslıq, fəlsəfə, tibb, riyaziyyat, etika, astronomiya ilə bağlı biliklərə yiyələnməklə yanaşı, həmçinin, Şərq musiqisinin dərinliklərinə bələd omalıdır, çünki Şərq ziyalısını yetişdirən amillər arasında musiqi ən əhəmiyyətli yerlərdən birini tutur. Nizami qəhrəmanlarının musiqiyə və musiqi alətlərinə, həmçinin, muğamlarımıza həssas münasibətlərini əks etdirən beytləri dediklərimizə sübutdur:

*Qüvvət elmdədir, başqa cür heç kəs,*
*Heç kəsə üstünlük eyləyə bilməz.*
*Hər uca zirvədən bilinir, fəqət,*
*Alimin zirvəsi ucadır əlbət.*

Ölümündən 800 ildən artıq vaxt keçsə də, kamillik zirvəsini fəth edən Nizamiyaradıcılığı parlaq günəş kimi hələ də müasir ədəbiyyatımızın yolunu işıqlandırır.

Bəşəriyyət durduqca, poeziya yaşadıqca Nizami yaradıcılığı da yaşayacaqvə əminəm ki, dövrünün mədəni həyatını əks etdirən musiqi ilə bağlı fikirləri hələ uzun müddət musiqişünaslarımızın diqqət mərkəzində olacaq, yeni tədqiqatlar üçün geniş imkanlar yaradacaq.

**Гульнар ВердиеваЯ**

**ПРИЕМНИК ВСЕХ ПОЭТОВ, СЛОВ И СТИХОВ НА СВЕТЕ**

**Резюме:** В этой статье повествуются изречения великого азербайд- жанского поэта Низами о музыке. Его взгляды словно проливали свет на культурную жизнь того времени и еще долго будут в центре внимания му- зыковедов, и повлекут за собой новые исследования.

**Ключевые слова:** культурология, музыковедение, исследования, Ни-зами, музыка

**Gulnar Verdiyeva****HOW LONG POETS, WORDS AND POEMS EXIST IN THE WORLD, SO LONG I WILL BE THE MEMORY FROM THEM**

**Summary:** This article tells about he thoughts of the great Azerbaijani poet Nizami on music. The poet's ideas about music, shedding light on the cultural lifeof his time, will remain in the center of attention of musicologists for a long timeand will entail new researches.

**Key words:** cultural, musicologist, research, Nizami, music

**Məqalənin redaksiyaya daxil olma tarixi: 29. 11. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ellada Hüseynova**